# Asiya turizminin yeni ulduzu

## Vyetnam son illər həm də tətil ölkəsi kimi məşhurlaşır



II YAZI



**Vyetnam təkcə Hanoy və Hoşimin (Sayqon) kimi meqapolis şəhərlərdən ibarət deyil. Cənub-Şərqi Asiyanın ən gözəl çimərlikləri, turizm mərkəzləri məhz bu ölkənin ərazisindədir. Yaddaşlarda adı yalnız savaş ölkəsi kimi assosiasiya olunan Vyetnam son illər dünyada tətil ölkəsi kimi məşhurlaşıb.**

Bakıdan ölkənin ikinci böyük şəhəri Hoşiminə qədər Qətər Hava Yolları ilə olan uçuşlar Vyetnam daxilində ölkənin hava yollarına məxsus lokal uçuşlarla əvəzlənir. Hoşimindən Fukuok adasına - ölkənin bu başından digər nöqtəsinə uçuş təxminən iki saat çəkir. Avtobusla 4 saatlıq yol isə turistləri Halong buxtasına aparır.

### "VYETNAM YAZIQ ÖLKƏDİR"

Son illər dünyanın hər tərəfindən turistlər Vyetnama böyük maraq göstərirlər. Ölkə günümüzdə Asiya turizminin yeni ulduzu sayılır. Keçən il ölkəyə 8 milyon turist gəlib. Fukuok adası və Holonq buxtası turistlərin istirahəti üçün seçilən ən gözəl yerlərdir. HG Travel şrkətinin Rusiya bazarı üzrə satıcısı Nguyen Nhu Thangın bildirdiyinə görə, Avropadan gələn turistlər daha çox ölkənin mədəniyyəti, tarixi məkanları ilə maraqlanırlarsa, ruslar istirahət məkanlarında, adalarda dincəlməyə üstünlük verirlər.

Tailand körfəzində yerləşən Fukuoka adasını Vyetnam üçün yeni istiqamət adlandırırlar. Adada yaşayan insanlar balıqçılıq və bibər istehsalı ilə məşğul olurlar. Keyfiyyətinə görə fərqlənən istiot digər ölkələrə də ixrac olunur. Adanın əhalisi əsasən balıqçılıqla dolandığı üçün burada balıq fabriki də fəaliyyət göstərir. Mirvari fabrikində turistlər qiymətli daşları təkcə seyr etmirlər, həm də onun alıcısına çevrilirlər. Çox da ucuz olmayan daşların hazırlanma prosesi də turistlərin marağına səbəb olur.

Adadakı insanlar daha çox özəl sektorda çalışırlar. Əgər CV normaldırsa, dövlət qulluğunda çalışmaq üçün də cəhd etmək olur. Ancaq özəl sahədə maaş dövlət idarələrindəki əməkhaqqından fərqlidir. Ümumilikdə orta aylıq əmək haqqı 200 dollar təşkil edir. Hər yerdə olduğu kimi, Vyetnamda da yaxşı maaş elə yaxşı həyat deməkdir.

Fukuokda kolleclər və orta məktəblər fəaliyyət göstərir. İşsizlərin sayı da çoxdur. Əhalinin çox hissəsi motosikillərlə gəzməyə üstünlük verir.

Bizi müşayiət edən bələdçi Ay bir ölkə kimi Vyetnamın başının bəlalar çəkməsindən danışır: "Vyetnam yazıq ölkədir. Müxtəlif illərdə ayrı-ayrı dövlətlərin müstəmləkəsi olub, müharibələr yaşayıb və bütün bu proseslər ölkənin həyatına təsirsiz ötüşməyib".

Bələdçinin bildirdiyinə görə, savaşdan sonra ölkənin iqtisadiyyatını inkişaf etdirmək üçün seçdiyi yollardan biri də turizmlə bağlıdır. Yaxın 10 il ərzində Vyetnam turizminin bölgədə liderlik qazanacağına şübhə etmirlər. Ölkəyə turistlər Fransa, Finlandiya, Almaniya, ABŞ və bəzən Rusiyadan gəlirlər. Müasir və ənənələr üzərində qurulan müxtəlif ulduzlu otellərdə turistlərə göstərilən xidmət keyfiyyəti ilə fərqlənir. Turistlər adada safariyə də qatıla bilirlər.



Fukuokun ziddiyyətli havası adaya bir sıra üstünlüklər bəxş edib. Hava proqnozunda 31-35 dərəcə istilik və ya günəşli hava göstərsə də, heç kimin gözləmədiyi halda qəfildən şiddətli yağış başlayır. Yollarda göllənən sular turistlər üçün ekzotik görünsə və onlar yağışda islanmaq həyəcanı yaşasalar da, yerlilər bu cür dəyişkənliyi adi qarşılayırlar. Daim üzərlərində gəzdirdikləri sellafon bürüncəkdən istifadə etməklə yollarına davam edirlər. Hava şəraiti insanların həyat və iş rejimlərini pozmur. Bu cür hava şəraiti Vyetnamda müxtəlif tərəvəz və bitkilərin, o cümlədən tropik meyvələrin yetişməsinə imkan yaradır. Banan, manqo, ananas və s. meyvələrin qiyməti isə 2-3 dollar arası dəyişir.

Turizmi inkişaf etdirmək və turistləri cəlb etmək üçün Fukuok adasında müxtəlif maraqlı tədbirlər də keçirilir. 2014-cü ilin "Vyetnam gözəli" müsabiqəsi də Fukuokda keçirilib. Hazırda Hanoyda yaşayan "Miss Vyetnam" məhz bu adada seçilib. Şəhər bazarında ağ mərcanlar, balıqqulağı və dəniz mirvarisindən dekor və bəzək əşyaları, ipək mallar satılır.

### DÜNYANIN SƏKKİZİNCİ MÖCÜZƏSİ

Turistlər üçün maraqlı məkanlardan biri də Halonq buxtasıdır. Adı YUNESKO-nun mədəni irs siyahısında yer alan körfəz Sakit okeanın sularına qarışıb. Yerli əhalinin dünyanın səkkizinci möcüzəsi adlandırdığı buxta demək olar ki, hər birinin öz adı olan qəribə formalı adaların mənzərəsi ilə görənləri heyran edir. Vyetnam turizminin incisi Halonq (əjdaha) körfəzi hesab olunur. Körfəzi çoxları dünyanın səkkizinci möcüzəsi hesab edir. Körfəzlə bağlı əfsanəyə yerlilər hələ də inanır. Onların deməsinə görə, adanı yaradan əjdaha hələ də dağlarda yaşayır. Bu üzdən buxta "Əjdaha körfəzi" də adlanır. Körfəzin 1500 kvadrat kilometrlik dəniz ərazisində 3000-ə yaxın ada və qayalar səpələnib. Qışda orta temperatur +18-20, yayda +25 dərəcədən yuxarı olur. Çoxlu sayda meymunlar saxlanan Meymunlar adasına səyahət isə əsil adrenalin yaşadır. Turistlər üçün adalara təşkil olunan qayıq gəzintiləri və mağaralara ziyarət maraqlı xatirələrlə yadda qalır. 10 dollar ödəməklə qayıq icarələyib körfəzi səyahətə çıxanlar da az deyil. Turistlər səyahət zamanı macəra dolu anlar yaşayırlar. Körfəzdəki əhalinin də əsas məşğuliyyəti balıqçılıqdır. Son illər balıqçıların uşaqları qayıqlarla açıq dənizə çıxır və balıqları paltar və düyüyə dəyişirlər. Körfəzdə külək və dalğaların təsirindən çoxlu çimərliklər və mağaralar yaranıb. Burada yüzlərlə mağara yerləşir. Körfəzdə ən maraqlı ada Yuançau hesab edilir. Ölkənin siyasi lideri Hoşiminin iqamətgahı da məhz bu adada yerləşib. Körfəzdə, həmçinin balıqçı kəndləri var. 1997-ci ildə Ceyms Bondun baş rolda oynadığı "Sabah heç vaxt ölməyəcək" filminin çəkilişləri də bu buxtadakı adalarda həyata keçirilib. Adaların adları bəzən poetik səslənir: "Şəfəqli tısbağa", "Yatan şahzadə", "Köhnə yelkən", "Yəhər", "Karandaş".... Adada həmçinin çoxlu göllər, şəlalələr var.

Turistlər adalarda lövbər salan gəmilərdə gecələməklə təbiətin nadir gözəlliyindən zövq ala və əyləncəli anlar yaşaya bilirlər.

### "MƏQSƏDİMİZ LYUKS OLMAQDIR"



Vyetnam Milli Turizm Nazirliyinin Səyahət Sənayesi idarəsinin baş direktoru Nguyen Quy Phuong bizimlə görüşündə bildirdi ki, ölkədə turizm infrastrukturunun inkişafına 1990-cı ildən başlanılıb. Həmin il ölkəyə 200 min turist gəlib. 1994-cü ildə bu rəqəm bir milyona çatıb. Turistlərin sayı 2000-ci illərdə 5 milyon, keçən il isə 8 milyon olub. "30 il əvvəl heç bir infrastrukturumuz yox idi. Heç avtobus yolları da salınmamışdı. İndi turizmin inkişafına dəstək olan bu cür layihələr üzərində işləyirik". Baş direktorun bildirdiyinə görə, ölkədə geniş otellər şəbəkəsi mövcuddur. Ümumilikdə, 350 min otağı olan otellər bir və beş ulduzlu olmaqla ölkənin bütün ərazilərini əhatə edir: "Bütün brend otellər Vyetnamda var. Gələn il Fukuokda "Mariot" oteli və başqa otellər tikiləcək. Xarici turistlər 3-5 ulduzlu otellərə gəlirlər". Vyetnam safarisi də bu sferada dünyada ikinci böyük safari sayılır.

Xidmət sferasında güclü olduqlarını bildirən baş direktor rəqiblərinin olmadığını da qeyd etdi: "Normalda rəqibimiz yoxdur, amma rəqib kimi nisbətən Kambocanı götürmək olar. Biz daha çox dəniz turizminə hesablanırıq. Bu sferada olan dövlətlərlə rəqabətdə ola bilərik. Dəniz turizmi olduğu üçün turistlər bura çox gəlirlər". Nazirlik rəsmisinin dediyinə görə, Vyetnamın dəniz turizmini Avropa ölkələrindən fərqləndirən geniş çimərliklərə malik olmasıdır. Ölkəyə ən çox turistlər Çindən gəlir. Həmçinin Yaponiya, Koreya, Amerika və Tailanddan gələnlər də üstünlük təşkil edir. Yayda daxili turizm inkişaf edirsə, qış aylarında - oktyabrdan aprelə kimi xaricdən gələn turistlər daha çox olur: "Bu cür çimərliklər Avropada yoxdur. Biz Tailand turizmi kimi ucuz xidmət göstərmək istəmirik, məqsədimiz lyuks olmaqdır. Xidmətimizin keyfiyyətini artırmaqla lyuks olacağıq".

Hazırda Vyetnamda 1500 turist agentliyi fəaliyyət göstərir. Koreya və Yaponiya kimi dövlətlər Vyetnam bazarına potensial kimi baxırlar. Çünki bu ölkədən də xaricə turist axını var. Belə ki, hər il 3 milyon vyetnamlı turist kimi xaricə gedir.

Təyyarə biletlərinin qiymətlərinə gəlincə, rəqabət yaratmaq üçün ölkəyə daha çox aviaşirkətlər dəvət olunur: "Aviaşirkətlər çox olanda rəqabət böyük olur və qiymətlər aşağı düşür".

Baş direktorun sözlərinə görə, hədəf nöqtələri Avropa və Şərq ölkələri - Belarus, Ukrayna, Qazaxıstan və Azərbaycandır: "1987-1988-ci ildən fərqli turizm sərgilərinə getməyə başlamışıq. Hazırda Ukraynada iqtisadi problemlər var. Ona görə düşünürük ki, Azərbaycan bizim üçün daha yaxşı nöqtə ola bilər". Baş direktor bildirdi ki, yanvar ayından turistlərin ölkəyə rahat daxil olmaları üçün viza aradan qaldırılacaq və artıq baş nazir bununla bağlı sənəd imzalayıb. "Gələn ildən turistlər turpaket alarkən vizaya ehtiyacları olmayacaq. Məsələn, seçilmiş böyük tur operatorların Azərbaycandakı şirkətlərlə əlaqəsi yaranacaq: "Biz öz tur operatorlarımız arasından ən yaxşılarını seçəcəyik ki, onlar bu işi həyata keçirə bilsinlər". Hələlik isə Vyetnama getmək istəyən insanlar hava limanının sərhəd keçid məntəqəsində 45 dollar ödəməklə ölkəyə giriş imkanı qazanırlar. Bu fürsət onlara həm ölkənin tarixi, həm mədəniyyəti ilə yaxından tanışlıq, həm cənnət guşələrində dincəlmək, həm də ekzotik mətbəxindən dadmaq imkanı qazandırır.

**Təranə Məhərrəmova**
**Fukuok- Halong buxtası**